

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 84 (21.236)

1 may 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakaonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə beynəlxalq maliyyə qurumları, o cümlədən Asiya İnkişaf Bankı arasında uğurlu əməkdaşlığın önəmi bildirildi, Azərbaycanın mötəbər beynəlxalq tədbirlərin keçirildiyi bir məkan olduğu məmnunluqla qeyd edildi. Bu baxımdan Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının illik toplantısının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulandı və tədbirə hazırlıq işlərinin yüksək səviyyədə təşkil edildiyi bildirildi.

Söhbət zamanı Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında həyata keçirilən uğurlu layihələrin əhəmiyyətindən danışıldı və əməkdaşlığımızın konkret perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs



*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün "Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda açıq dərs keçilib. Muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. Belə nadir şəxsiyyətlərdən biri də ötən əsrin və yeni minilliyin görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndərimizin adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilib.*

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda ilk dəfə hakimiyyətdə olduğu 1969-1982-ci illər tariximizə siyasi, iqtisadi, mədəni və mənəvi yüksəliş dövrü kimi daxil olub. O illərdə dövlət həyatının bütün sahələrində misligörünməmiş canlanma baş verib, qısa müddət ərzində Azərbaycan əsrə bərabər inkişaf yolu keçib. Azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılıb.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda o dövrdə xeyli zavod, fabrik, istehsal sahələri yaradılıb. Təhsil, mədəniyyət, səhiyyə müəssisələri üçün yeni obyektlər istifadəyə verilib. Bu sahələrin inkişafı üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Görülən işlər isə respublikamızı keçmiş SSRİ respublikaları arasında ən öncül yerlərdən birinə çıxarmışdı.

Vurğulanıb ki, Azərbaycanın müstəqil bir dövlət kimi formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci il oktyabrın 18-də Müstəqillik Aktı qəbul edildikdən sonra müstəqilliyin qorunub saxlanmasının onun əldə edilməsindən daha çətin olduğunu dəfələrlə bəyan edən ümummilli lider Heydər Əliyev deyirdi: ***"Biz bütün bu çətinliklərdən keçdik, bütün maneələrin qarşısını aldıq, Azərbaycanın düşmənlərinə layiqli cavablar verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik. Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq!"***

Azərbaycançılıq məfkurəsinin yaradıcısı kimi ulu öndər Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının reallaşdırılmasına, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail oldu. Müstəqilliyi xalqımızın ən qiymətli nemətі hesab edən dahi şəxsiyyət olduqca mürəkkəb bir dövrdə onu qoruya bildi.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaradıldı, milli ordu formalaşdırıldı. 1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəsin elan edilməsinə, Əsrin müqaviləsinin imzalanmasına, 1995-ci ildə Azərbaycan Konstitusiyasının qəbul olunmasına, Şərqlə Qərbi birləşdirən qədim İpək Yolunun bərpasına və digər məqsədyönlü tədbirlərin həyata keçirilməsinə nail olundu.

Qeyd edilib ki, ulu öndərin Azərbaycanın gələcək inkişafı naminə müəyyənləşdirdiyi siyasət bu gün ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının fəaliyyəti Azərbaycanın daha sürətlə inkişaf etməsinə, tərəqqisinə, demokratiyanın və vətəndaş cəmiyyətinin daha da möhkəmləndirilməsinə yönəlib. Onun həyata keçirdiyi düzgün və düşünülmüş siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu getdikcə yüksəlir, bütün sahələrdə qazanılan uğurlar artır. Bu uğurlar respublikanın bütün bölgələrini müasirliyə qovuşdurub. Bunu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının timsalında da görmək olar. Bu gün bu qədim diyarda həyata keçirilən geniş quruculuq tədbirləri Naxçıvanı örnək bir diyara çevirib.

Sonra liseyin kursantları Heydər Əliyev Muzeyindəki eksponatlarla tanış olublar.

Muxtar MƏMMƏDOV

## Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu

*Aprelin 30-da Naxçıvan Tibb Kollecində "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilib.*



Tədbiri giriş sözü ilə kollecin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İlhamə Mustafayeva açaraq bildirib ki, ölkəmizin müstəqil dövlətçilik tarixinin təhlili göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli missiyanı iradəli, geniş və qlobal dünyagörüşlü, xalqın dəstəyinə malik və onun milli liderinə çevrilmiş şəxs yerinə yetirə bilərdi. XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda bu işlərin öhdəsindən gəlmək iqtidarında olan yeganə lider Heydər Əliyev idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmış, milli və dövlətçilik maraqları tapdanmış xalqımızın özünəqayıdış və özünütəsdiqində ümummilli lider Heydər Əliyevin əməli fəaliyyətinin və ideya-siyasi baxışlarının çox böyük rolu olub.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda məruzə edərək bildirib ki, Azərbaycanın dövlət müstəqilliyində görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü xüsusi əhəmiyyətə malikdir. Ulu öndər Heydər Əliyev hələ Sovet hakimiyyəti dövründən etibarən Azərbaycanda milli kadrların yetişdirilməsinə, beləliklə, Azərbaycançılıq düşüncəsinə real təminat əldə olunmasına, Dağlıq Qarabağın sosial-iqtisadi inkişafının möhkəmləndirilməsinə xüsusi diqqət yetirdiyi kimi, Naxçıvan Muxtar Respublikasının inkişaf etdirilməsinə də ümummilli vəzifələr səviyyəsində böyük qayğı göstərib, ölkənin maraqlarını qoruyub. Dahi şəxsiyyət Naxçıvanda yaşayıb çalışdığı, muxtar respublikanın rəhbəri olduğu illərdə Azərbaycan üçün çox əhəmiyyətli olan böyük tarixi qərarlar qəbul edib. Azərbaycanın bu diyarının – Naxçıvanın mürəkkəb hərbi-siyasi şəraitdə işğaldan xilas olunmasının başlıca səbəbi xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi xalqı öz ətrafında birləşdirməsi, region dövlətləri ilə əlaqələri möhkəmləndirməsi idi. Azərbaycanın mürəkkəb və taleyüklü tarixi dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş ulu öndərimizin siyasi kursunun yaradıcılıqla həyata keçirilməsi müstəqil dövlətimizin bugünkü intibahının və gələcək inkişafının əsasını təşkil edir.

Ulu öndər Heydər Əliyevin müstəqil dövlətimizin yaranmasında və inkişafındakı tarixi xidmətlərini vurğulayan, dahi rəhbər Heydər Əliyevin zəngin dövlət idarəçilik təcrübəsinin əhəmiyyətindən danışan Musa Quliyev deyib ki, iki əsrin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışının nəticəsidir. Məhz həmin tarixi qayıdışdan sonra ümummilli liderimizin uzaqgörənlik və müdrikliklə həyata keçirdiyi siyasət Azərbaycanın müstəqilliyini əbədi, dönməz və sarsılmaz edib. 1993-cü ildən sonrakı dövr müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılıb, ictimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti olub. Məhz bundan sonra dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, genişmiqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli şərait yaradılıb.

Sonra ümummilli liderimizin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Səbuhi HÜSEYNOV

## Bu ilin ötən dövründə Naxçıvana 90 mindən çox turist gəlib

*Muxtar respublikamızın sosial-iqtisadi inkişafında turizm də xüsusi yer tutur. Naxçıvanın zəngin turizm ehtiyatlarının, mövcud turizm marşrutlarının imkanlarından istifadə etmək istəyən turistlərin sayı ildən-ilə artmaqdadır. Naxçıvanı yaxından tanıyan turistlər ölkəmizi daha yaxından tanımaq və mənalı istirahət fürsəti əldə edirlər.*

Bu il də turizm mövsümü uğurla başlanıb. Belə ki, 2015-ci ilin ötən dövrü ərzində də muxtar respublikamızda turizm sahəsinin inkişafı və təbliği üzrə görülən işlər bu sahənin dinamik inkişafını təmin edib. Əldə olunmuş statistik məlumatlara əsasən, muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 90 min nəfərdən çox turist gəlib ki, bu da 2014-cü ilin müvafiq dövründəki göstəricidən 2,5 faiz çoxdur. Muxtar respublikaya səfər edən turistlərin səyahət motivləri genişdir. Belə ki, bu dövrə aid turist axınlarını təhlil etdikdə xüsusilə yaz fəslinin başlanması və Novruz bayramı ilə əlaqədar insanların səyahətlərə olan meylinin artdığını görməkdəyik. Naxçıvanın tranzit imkanları, müalicə turizmi potensialı da buna təsir edən amillərdəndir. Bölgədə fəaliyyət göstərən servis sektorunun peşəkarlığının artması, Naxçıvan şəhərində və bölgələrdə istirahət və asudə vaxt mərkəzlərinin yaradılması, müasir standartlara cavab verən restoran və yeməkxana şəbəkəsinin təşkili turizmin inkişafını sürətləndirir. Naxçıvana səfər etmiş əcnəbi turistlər isə buradakı təbiət guşələrinə, tarixi abidələr və muzeylərə xüsusi diqqət göstərirlər. Qeyd edək ki, cari ilin aprel ayının əvvəlində Bakı şəhərində keçirilmiş "AITF-2015" 14-cü beynəlxalq "Turizm və səyahətlər" sərgisində muxtar respublikamızın təqdimatı xüsusi maraq doğurub.

Əli CABBAROV

*Azərbaycanın özü qədər əbədi*

# Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanda hüquqi islahatların banisidir



**Qırx ildən artıq bir zaman kəsiyində Azərbaycan dövlətçiliyinin taleyi görkəmli dövlət xadimi, dahi və uzaqgörən şəxsiyyət, öz xalqı və vətəni naminə misilsiz xidmətlər göstərən əbədiyaşar xilaskar Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Azərbaycan xalqının milli şüurunun oyanış dövrü olan bu illər həmçinin ölkəmizin hüquqi, ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdardır.**

Bütün həyatını və siyasi fəaliyyətini şanlı tarixi keçmişi və zəngin mədəni irsi ilə fəxr etdiyi xalqının inkişafına bəxş etmiş ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı çox çətin və ağır sınaqlardan müvəffəqiyyətlə çıxarmış, ölkənin tarixi ənənələri ilə müasirliyin uğurlu vəhdəti əsasında demokratik dəyərlərə söykənən yeni inkişaf strategiyasının əsasını qoymuşdur. Ölkəmizi müstəqil dövlət quruculuğuna aparan yol ulu öndərin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başlamışdır. Tarixə Milli Qurtuluş Günü kimi düşmüş bu əlamətdar hadisə bütün tariximizin xüsusi mərhələsi, əsaslı dönüş nöqtəsi olmuşdur.

Azərbaycan dövlətçiliyinin müqəddəratının həll olunduğu 1990-1993-cü illərdə dünya miqyaslı dövlət xadimi Heydər Əliyevin yenidən hakimiyyətə dəvət olunması dövlətimizi yalnız parçalanmaqdan, çevrilişlərdən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, qüdrətli, ildən-ilə gözəlləşən və tərəqqi edən müstəqil Azərbaycan dövlətini bəxş etdi.

Dahi rəhbər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirmişdir.

Ulu öndərin Azərbaycan tarixində böyük missiyası olduqca ağır və əlverişsiz şəraitdə müstəqilliyimizi xilas etmək, haqqa və ədalətə, demokratik inkişafa əsaslanan güclü dövlətçiliyin özülünü qoymaq oldu. Məhz böyük öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycanın müstəqillik tarixində yeni, real dövlət quruculuğu səhifəsi açıldı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda hüquqi islahatların başlanmasına təkan verən ən əlamətdar hadisələr 1993-cü ildə ölüm cəzası üzərində moratoriumun qoyulması, 1995-ci ildə əfv komissiyasının bərpası, 1998-ci il tarixdə ölüm cəzasının ləğvi olmuşdur.

Ümummilli liderin ölkədə hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində atdığı addımlardan biri də 9 avqust 1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanın imzalanmasıdır. ***"Biz humanist, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışacağıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik"***, – deyən ulu öndər Heydər Əliyev həmin fərmanla cinayətkarlığa qarşı mübarizə tədbirlərini daha da gücləndirmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövrü üçün fəaliyyət proqramını müəyyənləşdirmişdir.

Böyük öndərimiz çox yaxşı bilirdi ki, demokratik dəyərlərin prioritetliyini qəbul edən, azadlığın və ədalətin bərqərar olunduğu hüquqi dövlət qurmaq istəyən hər bir ölkə üçün ən əhəmiyyətli məsələlərdən biri Konstitusiyanın qəbul olunmasıdır.

Ulu öndər Heydər Əliyev Azərbaycanın ilk milli Konstitusiyasının müstəqilliyə xidmət etməsini, insan hüquq və azadlıqlarının qorunmasına təminat verməsini arzu edirdi. Bu məqsədlə 1995-ci ilin iyul ayında görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi.

***"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali, icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır"***, – deyən ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının hazırlanmasında həm ölkəmizin tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdür.

Beləliklə, ulu öndərin rəhbərliyi altında hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyətlərin bölünməsi prinsipinin, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının əsasını qoymuşdur.

Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan etmişdir. Konstitusiya 71-ci maddədə insan və vətəndaş hüquq və azadlıqlarını gözləməyi və qorumağı qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə vəzifə olaraq qoymuşdur.

Üçdəbir hissəsi insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunan Əsas Qanunun III fəslində bütün növ – şəxsi, siyasi, sosial-iqtisadi, mədəni və prosessual insan haqları təsbit olunmuşdur.

Bu gün beynəlxalq ekspertlər tərəfindən dünyanın demokratik konstitusiyalarından biri kimi qiymətləndirilən Əsas Qanunumuzda ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi hesab edilir.

Konstitusiyanın qəbulundan sonra hüquq-mühafizə orqanlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə ulu öndər Heydər Əliyev bir sıra mühüm qanunvericilik aktlarının qəbulunu təmin etmişdir. Bu məqsədlə 21 fevral 1996-cı il tarixdə Hüquq İslahat Komissiyası yaradılmış, komissiya tərəfindən hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış tədbirləri haqqında", "Notariat haqqında", eləcə də bir sıra digər qanunlar qəbul olunmuşdur.

Ötən dövr ərzində qanunvericilik sahəsində həyata keçirilən islahatların məntiqi davamı kimi Azərbaycan Respublikasının Konstitusiyasından qaynaqlanan bir sıra məcəllələr – Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Ailə, Əmək, Vergi və sair məcəllələr də qəbul edilmişdir.

Ulu öndər həmçinin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsinin və sözügedən sahədə mütərəqqi islahatların aparılmasının bünövrəsini qoymuşdur. Təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Əsas Qanunda hakimlərin müstəqilliyi və ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri müəyyən olunmuşdur.

Bundan başqa, 1998-ci ildə respublikada ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradılmış, köklü məhkəmə-hüquq islahatları nəticəsində 2000-ci ildən əvvəlki məhkəmə sistemindən əsaslı surətdə fərqlənən və insan hüquqlarının müdafiəsinə daha etibarlı təminat verən yeni üçpilləli müstəqil məhkəmə sistemi təsis edilmiş, eləcə də 2005-ci ildə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası fəaliyyətə başlamışdır.

Ardıcıl şəkildə aparılan məhkəmə-hüquq islahatlarının başlıca qayəsi isə ölkədə qanunun aliliyinin təmin edilməsi, məhkəmə orqanları sisteminin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkil olunması, cinayət və mülki mühakimə icraatı zamanı ədalət, qanunçuluq, obyektivlik prinsiplərinin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi olmuşdur.

Ulu öndər Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı "İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə insan hüquqlarının mühafizəsi istiqamətində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyən edilmiş və bu sənədlə insan hüquqları məsələsi sistemli şəkildə ümumdövlət səviyyəsinə qaldırılmışdır. İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə xalqımızın böyük oğlu Heydər Əliyev tərəfindən 1998-ci il iyun ayının 18-də xüsusi sərəncam imzalanmışdır ki, məhz bu sərəncamla İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı hazırlanmış və təsdiq olunmuşdur.

Konstitusiyaya uyğun olaraq, ölkədə yeni bir demokratik təsisat olan yerli özünüidarəetmə – bələdiyyələr formalaşmağa başlamış, "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə qulluğu haqqında" qanunlar qəbul edilmiş və 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirilmişdir.

Ölkəmizdə aparılan hüquq islahatlarının mühüm tərkib hissəsi kimi dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi məqsədilə 2001-ci ildə demokratik dövlətlərin hüquq sistemində mühüm rol oynayan, qeyri-məhkəmə müdafiə mexanizmi hesab edilən daha bir yeni təsisat – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) institutu yaradılmışdır.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin rəhbərliyi dövründə respublikamız insan hüquq və azadlıqlarının, eləcə də demokratik təsisatların inkişafı ilə bağlı bir sıra fundamental beynəlxalq-hüquqi aktlara qoşulmuş, bütün bunların nəticəsi kimi 1996-cı ildən Avropa Şurasında "xüsusi qonaq statusu" ilə təmsil olunan Azərbaycan 2001-ci ildə qurumun Nazirlər Komitəsinin qərarı ilə Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilmişdir.

Bütün ömrünü xalqına və Vətəninə həsr etmiş əbədiyaşar xilaskar Heydər Əliyevin siyasi fəaliyyətinin ən böyük uğuru bu gün dünya dövlətləri arasında özünəməxsus yer tutan və böyük nüfuza sahib olan Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanması olmuşdur.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində həyata keçirdiyi tədbirləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev uğurla davam etdirməkdədir.

Bu gün ölkəmizdə qanunun aliliyinin daha möhkəm təmini, hüquq-mühafizə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi və insan hüquqlarının daha asan və operativ şəkildə qorunması üçün elektron hökumət və elektron məhkəmə sisteminin qurulması naminə misilsiz işlər görülməkdədir.

Qeyd edək ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə başçısı cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilən, vətəndaşların hüquq və azadlıqlarının ədalət mühakiməsi yolu ilə qorunması prinsiplərinin inkişafına xidmət göstərən məhkəmə-hüquq islahatları Azərbaycanın bütün regionlarını əhatə etməkdədir. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında yuxarıda qeyd edilən qanunvericilik aktları ilə yanaşı, "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanının müstəsna rolu olmuşdur.

Fərmanın qəbulundan sonra ötən illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında muxtar respublikada hüquq institutlarının inkişafı, hüquq-mühafizə orqanlarının və məhkəmələrin fəaliyyətinin müasir tələblər nəzərə alınmaqla təşkil olunması, eləcə də onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində mühüm işlər görülmüş, dövlət orqanlarının, o cümlədən məhkəmə orqanlarının müasir texniki avadanlıqlarla təchiz olunması, habelə onların fəaliyyətində yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində bir sıra zəruri addımlar atılmışdır.

Ötən dövrdə məhkəmə orqanlarının maddi-texniki bazasının daha da gücləndirilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən bütün məhkəmələr – Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələri üçün yeni inzibati binaların inşa olunub istifadəyə verilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin məhkəmələrin hüquq sistemindəki yerinə böyük önəm verdiyinin ən parlaq göstəricisidir.

Bundan başqa, ötən illər ərzində insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatı və Vəkillər Kollegiyası yaradılmış, bu qurumların hüquqi statusunu müəyyən edən "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" və "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" qanunlar qəbul edilmişdir.

Muxtar respublikada müasir tələblərə cavab verən cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının yaradılması Naxçıvan Muxtar Respublikasının ədliyyə sistemində həyata keçirilən ən mühüm islahatlardandır.

Muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyətlərinin stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq müasir tələblərə cavab verən yeni inzibati binalar istifadəyə verilmiş və onlar modern avadanlıqlarla təchiz edilmişdir.

Hazırda muxtar respublikada qanunun aliliyinə əsaslanan müasir demokratik, hüquqi dövlət quruculuğu, aparılan uğurlu dövlət siyasəti Azərbaycan dövlətçiliyinin inkişaf göstəriciləri kimi qəbul olunur.

***Şübhəsiz ki, bundan sonra da ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü islahatlar insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı şəkildə təmin olunmasına, demokratik təsisatların daha da möhkəmlənməsinə səbəb olacaqdır.***

**Polad HƏSƏNOV**
**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi**




## Naxçıvanda üzümçülüyün şöhrəti özünə qaytarılır



*Qədim Naxçıvanın torpaq-iqlim şəraiti tarixən buraya yolu düşən səyyahların, turistlərin, coğrafiyaşünasların diqqətini cəlb etmiş, onlar diyarımızda belə şəraitin yaratdığı imkanlardan istifadə olunaraq yüksəkkeyfiyyətli ərzaq məhsulları – tərəvəz növləri, meyvə və giləmeyvələr yetişdirildiyini görmüş, bunu yüksək qiymətləndirmişlər. Şahtaxtı tutma qovunu, Nehrəm qarpızı, Ordubad limonu və əriyi, Şahbuz alması, Culfa üzümü kimi nemətlərin dünya bazarlarına və sərgilərə çıxarılması, yüksək mükafatlara, diplomlara layiq görülməsi diyarımızın şöhrətini uzaq-uzaq məmləkətlərə yaymışdır. Belə məhsullar içərisində süfrələrimizdə özünəməxsus yeri olan üzüm məhsulları da xüsusi qeyd edilməlidir.*

Son illərdə bu sahədə də daha böyük nailiyyətlərə imza atılması regionda aqrar sektorun inkişafına dövlət qayğısının ifadəsi, insanların ərzaq məhsulları ilə etibarlı təminatının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlərin bəhrələridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda üzümçülüyün inkişaf etdirilməsinin vacibliyi də önə çəkilmişdir.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının müdiri Varis Quliyev deyir ki, hələ b.e. 3000 il öncə qədim Naxçıvan diyarında yaşayan türk tayfalarının əsas məşğulluq sahələrindən biri də üzümçülük olmuşdur. Ona görə də uzun illərdən bəri xalq seleksiyası nəticəsində çoxlu sayda qiymətli üzüm sortları yaradılaraq nəsildən nəslə ötürülmüşdür. İslam dininin qəbul edilməsinə qədərki dövrdə bu ərazidə süfrə üzümçülüyü ilə yanaşı, üzümdən, əsasən, şərab məhsullarının hazırlanmasına daha çox diqqət yetirildiyindən üzüm bağlarında texniki sortlar üstünlük təşkil etmişdir. Lakin İslam dininin qəbul edilməsi ilə əlaqədar olaraq, şərab məhsulları istehsalı qadağan olunduğuna görə üzüm bağlarında daha çox süfrə sortlarının becərilməsinə başlanılmışdır. O dövrdə üzüm məhsulundan müxtəlif spirtsiz məhsulların, həmçinin qurudulmuş kişmiş və mövüc hazırlanmasında istifadə olunmuşdur, hətta belə məhsullar Yaxın Şərq ölkələrinə ixrac edilmişdir. Hazırda Rusiyanın Sankt-Peterburq şəhərindəki Ermitajda saxlanılan və Naxçıvan ərazisindən tapılmış VII əsrə aid üzüm salxımları ilə bəzədilmiş tunc at fiquru əyani şəkildə göstərir ki, bu diyarın yerli əhalisi çox qədimdən üzüm bitkisini necə sevmiş və qiymətləndirmişdir.

Ötən əsrin 70-ci illərindən etibarən ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi sayəsində respublikamızda üzümçülüyün yeni müstəvidə inkişafı təmin olunmuşdur. Ümummilli liderin 1969-cu ildə ölkəmizə rəhbərliyə başladığı zaman Azərbaycanda üzüm istehsalı 272 min ton olduğu halda, sonrakı dövrlərdə görülmüş tədbirlər nəticəsində bu rəqəm 2 milyon tonu ötmüşdür. Bu da, öz növbəsində, aqrar-sənaye kompleksinin inkişafına, kənd əhalisinin məşğulluq və həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Ümumiyyətlə, ötən əsrin 80-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü iqtisadi tədbirlər sayəsində emal müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, güclü kadr potensialı yaradılmış, üzümçülükdə xeyli uğurlar qazanılmışdır. Lakin keçmiş ittifaq rəhbərliyinin alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri haqqında 1985-ci ildə qəbul etdiyi qərar respublikamızda üzümçülüyün inkişafına ciddi zərbə vurmuşdur. Bu qərarla qərardan sonra Azərbaycanda 130 min hektardan çox məhsuldar üzüm bağı məhv edilmiş və uzun illər böyük zəhmət hesabına yaradılan infrastruktur dağıdılmışdır. Digər tərəfdən, 90-cı illərin əvvəllərində ölkədə hökm sürən xaos, hərc-mərclik bu sahənin inkişafına öz mənfi təsirini göstərmiş, istehsalçılarla istehlakçılar arasında ənənəvi münasibətlərin pozulmasına və nəticədə, bir sıra üzümçülük-şərabçılıq müəssisələrinin fəaliyyətinin dayandırılmasına səbəb olmuşdur. Bu tendensiya qədim üzümçülük ənənələri olan Naxçıvandan da yan keçməmişdir.

Yalnız ölkəmiz müstəqillik əldə etdikdən və ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən Azərbaycanda üzümçülüyün inkişafına ciddi önəm verilmiş və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 15 dekabr tarixli Sərəncamında üzümçülüyün əsas istiqamətləri, müasir vəziyyəti, inkişafının məqsəd və vəzifələri, maliyyə mənbələri və gözlənilən nəticələr müəyyənləşdirilmişdir. Üzümçülüyün yenidən inkişaf etdirilməsi Naxçıvan Muxtar Respublikasının da büdcəsinə külli miqdarda maddi gəlir vermək və üzümün becərilməsi ilə məşğul olan kənd əhalisinin maddi rifah halının yüksəldilməsində mühüm rol oynaması baxımından böyük əhəmiyyət daşıyır.

Muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər tarixən burada formalaşdırılmış üzümçülük ənənələri, yetişdirilən yerli üzüm sortları haqqında danışan Varis Quliyev onu da vurğuladı ki, tarixi mənbələrdə qeyd edildiyi kimi, regionda tez, orta və gecyetişən, xoşagəlimli əmtəə görünüşlü, giləlırinin müxtəlif rəngləri olan ağ, qırmızı, sarı, qara, qəhvəyi kişmişilər, əsgəri, xəlili, kürdəşi, həmçinin Naxçıvan hüseynisi, bəndi, bənənyari, miskalı, haçabaş, ağ tayfı, ağ aldərə, hənəqırna, Naxçıvan şanısı, Naxçıvan qara üzümü, sahibi, xan üzümü və sair aborigen üzüm sortları ulu babalarımızın bizə miras qoyub getdikləri ən gözəl seleksiya nümunələridir. Bu üzümlərdən müxtəlif məqsədlər üçün istifadə olunmuşdur. Onlardan kişmiş, mövüc, sirkə, bəhməz və sair hazırlanmasında istifadə edilirdi. Vaxtilə Naxçıvanda becərilən çoxlu sayda üzüm sortları buraya gələn və buradan keçən səyyahların, tacirlərin diqqətini cəlb etdiyindən sortların bir qismi qonşu bölgələrə, dünyanın bir sıra ölkələrinə yayılmış və müvafiq ad və sinonimlərlə adlandırılmışdır.

1995-ci ildən başlayaraq regionda aborigen üzüm sortlarının kompleks şəkildə tədqiq olunması, qədim üzümçülük ənənələrinin bərpa edilməsi, üzümçülüklə məşğul olan adamların yüksəkkeyfiyyətli, immunitetli, müxtəlif vaxtlarda yetişən və iqtisadi səmərəliliyi yüksək olan yeni sort və formalardan ibarət əkin materialları ilə təmin edilməsi öz bəhrəsini verməkdədir. Hazırda muxtar respublikada süfrə üzümü və ondan hazırlanan müxtəlif məhsullara tələbat ildən-ilə artır. Müasir dövrdə muxtar respublikada üzümçülüyün və ona uyğun istehsal sahələrinin yenidən inkişaf etdirilməsi, məhv olmaq təhlükəsi altında olan genofondun qorunması, perspektivli sortların fermer və özəl təsərrüfatlarda geniş istehsalına nail olunması kimi vəzifələr qarşıda durur.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutundan bildirdilər ki, indiyə kimi regionda 30-a qədər yerli sortların ampeloqrafik tədqiqi aparılmışdır. AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunda Naxçıvan Muxtar Respublikasında mövcud üzüm genofondunun toplanılaraq qorunması, həmçinin kompleks şəkildə botaniki, genetik və ampeloqrafik tədqiqi aparılmaqla, ərazidə yayılan 120-dən çox aborigen, 23 introduksiya olunmuş, 17 yeni klon variasiyalarından və 30-dan çox seleksiya üsulları ilə alınmış formalardan ibarət "Üzüm genofondu" kolleksiya bağı salınmışdır.

Muxtar respublikada üzümçülüyün keçdiyi yol, iqtisadi səmərəlilik baxımından bu gəlirli sahənin inkişafı üçün bugünkü mövcud imkanlar, perspektivlər, görülən işlər barədə bu yazını hazırlayarkən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi ilə əlaqə saxladıq. Öyrəndik ki, son illərdə muxtar respublikada 138,7 hektar sahədə yeni üzüm bağları salınmışdır. Daha dəqiq desək, əgər muxtar respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramı qəbul olunan 2008-ci ildə 994,4 hektar üzüm bağı var idisə, hazırda üzüm bağlarının sahəsi 1133,1 hektar təşkil edir.

Bağlar salınarkən muxtar respublikanın torpaq-iqlim şəraiti nəzərə alınır, bir vaxtlar regionda yetişdirilmiş məhsuldar sortların əkininə üstünlük verilir, bağ salmaq istəyənlərə hərtərəfli şərait yaradılır, onlar müxtəlif dövlət yardımları və kreditlərlə təmin olunurlar. Bu isə o deməkdir ki, regionda üzümçülüyün şöhrəti özünə qaytarılmaqdadır.

**... Naxçıvan-Sədərək magistralının Kəngərli rayonu başlanan hissəsində avtomobildən düşürəm. Daha doğrusu, rayonun Yeni Kərki kəndi yaxınlığında. Yolun hər iki tərəfi əkin sahələridir. Neçə illərdir ki, bu ərazilər kənd adamlarının daimi iş, halal qazanc yerinə çevrilib. Onlar burada müxtəlif əkinçilik məhsulları yetişdirir, həm özlərinin tələbatlarını ödəyir, həm də daxili bazara töhfələrini verir, bununla digər ehtiyaclarını da ödəyirlər. Burada daha çox gözədəyən taxıl zəmiləridir. Son illərdə rayonun torpaq mülkiyyətçiləri strateji məhsul olan taxıl istehsalına ciddi diqqət yetirir, yaxşı da qazanc əldə edirlər. Mənimlə birlikdə olan rayonun "Yeni həyat" qəzetinin redaktor əvəzi Malik Qasımov sahələrə diqqətlə baxdığımı görüb dillənir:**

## Kim yaradılan şəraitdən səmərəli istifadə edirsə, həm o qazanır, həm də dövlətimiz

– Rayonun ən münbit torpaq sahələridir. Elə bil taxılçılıq üçün seçilib. Bu sahələrdə taxıl əkənlər heç vaxt məhsuldarlıqdan narazılıq etməyiblər. Dövlətimiz də burada məskunlaşan insanlara qayğısını əsirgəmir. Onların keyfiyyətli toxumla, mineral gübrələrlə təchizatını diqqətdə saxlayır. Texnika ilə təminatın yaxşılaşdırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

Diqqətlə sahələrə baxıram. "Yaxşı cücərti alınıb", – deyə düşünürəm. Malik müəllim söhbətini davam etdirir:

– Qış bir qədər quraqlıq keçsə də, mart ayı, necə deyərlər, bunun əvəzini çıxdı. Torpaq mülkiyyətçilərinin, xüsusilə də taxılçıların üzü güldü. Hər il olduğu kimi, bu il də məhsuldarlıq 28-29 sentnerdən aşağı olmayacaq.

Elə Böyükdüz, Xok, Şahtaxtı, Qarabağlar, Çalxanqala və digər yaşayış məntəqələrində də sahələrdən bol məhsul götürüləcəyindən kənd adamları tam əmindirlər. Çünki neçə illərdir, qazanılan təcrübədən istifadə edilməklə indiyə qədər aparılmalı olan bütün aqrotexniki tədbirlər vaxtında və düzgün əməl edilib, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri yerlərdə onlara maarifləndirici məsləhətlər veriblər.

Qarabağlar kəndində ən yaşlı sakin, ziyalı, el ağsaqqalı Nahaz Səfərovla öz həyətində, çay süfrəsi arxasında söhbət edirik. Nahaz müəllim maraqlı müsahibdir, təsərrüfatı da yaxşı bilir:

– Qarabağlarda da insanların əlinin torpaqdan soyuduğu vaxtlar oldu. Xüsusilə də gənclərin. Şükür Allaha ki, bu, çox uzun çəkmədi. Dövlətimiz tərəfindən görülən tədbirlər öz bəhrələrini verdi, – deyərək bir qədər dayanır, sonra sualla mənə müraciət edir:

– Qıvraqdan Qarabağlaradək yol kənarlarına baxdınızmı? Hər yer yaşıllıq içərisindədir. Payızda taxıl əkilib. Şumlanıb əkilməyən sahələrdə isə yaz mövsümündə əkin aparılır. İnsanlar harada nə əkəcəklərini, haradan daha çox məhsul götürəcəklərini yaxşı bilirlər. Odur ki, kəndimizdə yaşayış səviyyəsi günü-gündən yüksəlir. Bunların hamısı isə dövlətimizin yaratdığı şərait hesabına mümkün olub. Kənd adamına, torpaqdan möhkəm yapışan insanlara nə köməklik lazımdırsa, artıqlaması ilə edilir.

* * *

Müsahiblərimin hər ikisinin sözlərindəki həqiqəti rayon İcra Hakimiyyətində təsdiq etdilər. Öyrəndim ki, rayonda ümumi istifadədə 70489 hektar torpaq sahəsi var. Bunun 1425 hektarı həyətyanı, 5411 hektarı isə pay torpağı olmaqla, 6836 hektarı xüsusi mülkiyyətdədir.

Dövlət mülkiyyətindəki 20741, bələdiyyə mülkiyyətindəki 42912 hektar torpaq sahəsindən də istifadəyə şərait yaradılıb. Bu şəraitdən bəhrələnən torpaq mülkiyyətçiləri ötən il 4277 hektar sahədən 10972 ton taxıl tədarük ediblər. 2015-ci ilin məhsulu üçün isə ötən ilin payızında 3687 hektar sahədə payızlıq taxıl əkini aparılıb. Digər əkinçilik sahələrində də uğurlu nəticələrə nail olunub. Sahələrdən 11894 ton dənli və dənlipaxlalılar, 452 ton qarğıdalı, 299,5 ton günəbaxan, 2854,7 ton kartof, 3572 ton tərəvəz, 2180,2 ton bostan məhsulları götürülüb. Rayonda meyvəçilik və üzümçülükdə də zəngin təcrübə qazanılıb. Son illər bu sahələrə maraq daha da artıb. Ötən il torpaq mülkiyyətçiləri 4476 ton meyvə, 475 ton üzüm yetişdiriblər.

Cari ilin yaz əkinlərini vaxtında həyata keçirmək üçün ötən ilin payızından hazırlıq işlərinə başlanılıb. Artıq əkin kampaniyası uğurla start götürüb. 1 aprel tarixədək 238 hektar sahədə əkin keçirilib. Bunun 181 hektarını yazlıq arpa, 34 hektarını kartof, 3 hektarını tərəvəz, 20 hektarını çoxillik ot təşkil edir.

Rayonun yaşıllıqlar məkanına çevrilməsində ekoloji tədbirlər mühüm rol oynayır. Cari ildə də bu işlər davam etdirilməkdədir. Bu günədək yaz iməciliklərində 4 hektar yeni yaşıllıq sahəsi salınıb, 3 hektar meyvə bağında bərpa işləri aparılıb. Ümumilikdə, 4500 ədəd ting əkilib. Bununla da, rayonda bağ sahələri 636 hektara çatdırılıb.

Qeyd edək ki, kənd təsərrüfatının inkişafında sahibkarlıq fəaliyyəti də mühüm rol oynayır. Hazırda rayon ərazisində 3 quşçuluq təsərrüfatı, 1 balıqçılıq təsərrüfatı, heyvandarlıq təsərrüfatları, 1 un dəyirmanı, 300 ton tutumu olan soyuducu anbar, 2 istixana kompleksi, 1 tərəvəz məhsullarının qablaşdırılması müəssisəsi, 16 çörəkbişirmə sexi, 1 pendir istehsalı müəssisəsi aqrar sahənin inkişafına öz töhfələrini verirlər.

* * *

Kəngərli rayonundan qayıdarkən Xok kəndi ərazisindəki meyvə bağında çalışan sahibkar Xaləddin Zeynalovla görüşdüm. Məlumat üçün bildirim ki, bir neçə ildir, sahibkarlıq fəaliyyəti ilə məşğul olan Xaləddin Zeynalov təcrübəli təsərrüfatçıdır. Dövlətin yaratdığı şəraitdən səmərəli istifadə etməyi bacaran sahibkara "Kənd təsərrüfatı ili"ndə uğurlar arzuladım. Bildirdi ki, bu gün həyatda qazandıqları üçün dövlətimizə minnətdardır:

– Dövlətdən kredit götürmüşəm. Əkin sahələrimin suvarılmasında heç bir problem yoxdur. Vaxtında bütün tədbirlər həyata keçirilib. Texnika ilə təminatdan da xeyli razıyam. İstənilən vaxt "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Kəngərli bazasının fəaliyyətindən istifadə etmək imkanları yaradılıb. Biz sahibkarlara bircə o qalır ki, vicdanla çalışaq, məhsul bolluğu yaradaq. Bundan həm özümüz bəhrələnək, həm də muxtar respublika sakinləri. Belə olan halda muxtar respublika iqtisadiyyatı daha da güclənəcək. Qazandığımız da özümüzə qalacaq. Başqa yerlərdən diyarımıza kənd təsərrüfatı məhsulları gətirilməyəcək. Kim yaradılan şəraitdən səmərəli istifadə edirsə, həm o qazanır, həm də dövlətimiz.

Səhifəni hazırladı: Muxtar MƏMMƏDOV

*Yeni nəşrlər*

# Naxçıvanın dərman bitkilərinə həsr olunmuş ilk kitab

***Bitkilərin müalicəvi xüsusiyyətləri insanlara hələ qədim zamanlardan məlum olmuşdur və min illərdir ki, bitkilərdən qida, sığınacaq, mühafizə, müalicə və sair məqsədlər üçün istifadə edilir. Hələ eramızdan 6000-8000 il əvvəl şumerlərin, vavilonların, assuriyalıların işlətdikləri dərman bitkiləri haqqındakı məlumatlar misirlilər, yunanlar, romalılar, çinlilər və tibetlilər tərəfindən mənimsənilmişdir. Şərq ölkələrində də dərman bitkilərindən geniş istifadə olunmuşdur. Qədim Roma, Çin, yunan, Misir və Şərq həkimləri dərman bitkilərinin öyrənilməsinə, müxtəlif üsullarla xəstəliklərin müalicəsində istifadəsinə aid dəyərli əsərlər yazmışlar.***

Xüsusilə qədim Roma həkimləri Klavdiya Qalen, Korneliya Cels, Böyük Pliniy, Dioskorid, Çin alimlərindən Li-Di, Li-Şi-Çjen, Şərqin böyük loğmanı Əbu Əli İbn Sina bu sahədə dünya şöhrəti qazanmışlar. Məsələn, farmakoloq Li-Şi-Çjen 27 il ərzində yazdığı 52 cildlik “Farmakologiyanın əsasları” adlı əsərində 1500-dən çox, Böyük Pliniy “Tibb tarixi” kitabında 1000, Əbu Əli İbn Sina isə “Tibb elminin qanunları” kitabında 600-ə qədər dərman bitkisi haqqında məlumat vermişlər. Xalq təbabətinin bir qolu olan türkəçarələr həmin müalicə üsullarına aid olmaqla, zamanın sınağından uğurla çıxmış və bu gün də öz əhəmiyyətini itirməmişdir.

Müasir təbabətdə dərman bitkilərindən istifadəyə xüsusi diqqət və əhəmiyyət verilir. Yer kürəsində istehsal olunan dərman preparatlarının, demək olar ki, 50 faizdən çoxu bitki mənşəlidir. Çünki dərman bitkilərinin tərkibindəki orqanizm üçün xas olan bir sıra təbii birləşmələr fizioloji proseslərə təsir edərək müdafiə xarakterli reaksiya olan immuniteti gücləndirir.

Qədim zamanlardan etibarən istifadə istiqamətindən asılı olaraq, bitkilər müəyyən qruplara bölünməklə adlandırılmışdır; məsələn, yeməli bitkilər, yem bitkiləri, bəzək bitkiləri, balverən bitkilər, dərman bitkiləri, zəhərli bitkilər. Bitkilərdə həyat fəaliyyəti dövründə əmələ gələn və özündə toplanan maddələrdən bir çoxu canlılar tərəfindən istehlak edilir. Bu ən çox zülallı, şəkərli, vitaminli və digər bioaktiv maddələrin toplandığı dərman bitkiləridir. Lakin bəzi bitkilər də vardır ki, onların vegetativ və ya generativ orqanlarında toplanan maddələr zəhərlidir. Məhz buna görə də insanlar bu qisim bitkiləri qruplara ayırırlar.

“Zəhərlilik” məfhumu haqqında danışarkən XV əsrin məşhur həkimi Paraselsin “Maddənin yalnız dozası onun zəhər və ya dərman olacağını müəyyənləşdirir” fikri bu anlayışı daha düzgün izah edir. Əksər zəhərli bitkilərdən, məsələn, üskükotu və inciçiçəyindən ürək qlikozidləri, batbatdan atropin və skopolamin kimi qiymətli dərman preparatları alınır. Hesablamalara görə, Yer kürəsində, təqribən, 10 mindən çox zəhərli bitkinin olduğu güman edilir ki, onların da böyük əksəriyyəti tropik və subtropik zonalarda yayılmışdır. Lakin soyuq iqlim qurşaqlarında da zəhərli bitkilərə rast gəlinir. Bu bitkilər içərisində efir yağlı, boyaq, aşı maddəli, balverən, insektisidli, vitaminli, bəzək və digər xalq təsərrüfatı və dərman əhəmiyyətli bitkilər də vardır. Odur ki, zəhərli bitkilərlə mübarizə apararkən bitkilərin bu cür xüsusiyyətləri nəzərə alınmalıdır.




Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, biologiya üzrə elmlər doktoru, professor Əliyar İbrahimov, biologiya üzrə fəlsəfə doktorları, dosent Ənvər İbrahimov, dosent Ramiz Ələkbərov, dosent Abbas İsmayılov, kimya üzrə fəlsəfə doktoru, dosent Vahid Quliyev və Naxçıvan Dövlət Universitetinin baş müəllimi Əli Qurbanov tərəfindən hazırlanmış və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə dəyərli töhfə olan “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri” adlı fundamental kitab ötən il işıq üzü görmüşdür. Çoxillik tədqiqatların nəticələri əsasında yazılmış 462 səhifəlik bu kitab Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən nəfis şəkildə nəşr olunmuşdur. Kitabın elmi redaktoru biologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Elşad Qurbanov, rəyçiləri isə biologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Saleh Məhərrəmov və biologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Tofiq Məmmədovdur.

Naxçıvan Muxtar Respublikasının kserofittipli zəngin florası Aralıq dənizi, Ön Asiya və İran floraları ilə sıx genetik əlaqədə inkişaf etməklə, buradakı bitkilər 8 sinif, 104 sıra, 170 fəsil, 874 cins və 2835 növlə təmsil olunmuşdur.

Təqdim edilən kitabda Naxçıvan Muxtar Respublikasının mühüm təbii sərvətlərindən biri olan bitkilər aləmi, onun florasının zənginlikləri elmi-təcrübi istiqamətdə ətraflı tədqiq edilməklə elmi nəticələrin istehsala tətbiqi üzrə dəyərli məlumatlar verilmişdir. Yeni nəşrdə flora biomüxtəlifliyinə daxil olan 1200-dən çox faydalı və 750-800 növə yaxın dərman bitkilərinin olduğu müəyyənləşdirilmişdir. Keçmiş SSRİ-nin Farmakopeya nəşrləri və beynəlxalq farmakopeyalara daxil edilmiş rəsmi dərman bitkilərinin araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası florasında 42 sıraya, 49 fəsiləyə, 106 cinsə mənsub olan 132 növ ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər vardır ki, onlar da yüz illərdir, tibb aləmində istifadə edilir. Bu bitkilərdən 44 növü becəriləndir, 88 növü isə təbii halda yayılmışdır. Onlardan da 11 növü nadir bitki kimi Naxçıvan Muxtar Respublikasının “Qırmızı Kitabı”na daxil edilmişdir. Aşkar edilən rəsmi dərman bitkilərinin həyat formalarına görə 24 növünün (12 növü becərilir) ağaclar, 22 növünün kollar (8 növü becərilir), 61 növünün (7 növü becərilir) çoxillik otlar, 25 növünün isə birillik və ikiillik otlardan (17 növü becərilir) ibarət olduğu müəyyənləşdirilmişdir. Müəlliflər yabanı rəsmi dərman bitkiləri olan 88 növdən 30 növünün təbii ehtiyatının bol olduğunu dəqiqləşdirmişlər. Təbii ehtiyatı bol olan bu növlərin mövcud yayılma zonaları, təbii ehtiyatı və mümkün istismar imkanları öyrənilməklə müvafiq xəritələrdə göstərilmişdir. Yabanı bitkilərin 11-i nadir növ kimi Naxçıvan Muxtar Respublikasının “Qırmızı Kitabı”na daxil edilmiş və mühafizə yolları göstərilmişdir.

Kitabda dərman bitkilərinin toplanılması, qurudulması və saxlanılması qaydalarına xüsusi yer verilmiş, eyni zamanda bitkilərin latınca-azərbaycanca adları, istifadə olunan hissəsi və toplanılma vaxtları da müfəssəl şəkildə qeyd olunmuşdur. Burada oxucuları maraqlandıran dərman bitkilərinin təsviri, orijinal şəkli, yayıldığı ərazilər, kimyəvi tərkibi, müalicəvi əhəmiyyəti, onlardan alınan preparatlar, reseptlər və istifadə qaydalarına dair geniş materiallar verilmişdir. Bundan başqa, kitabdakı Naxçıvan Muxtar Respublikası ərazisində bitkiliyin tipoloji vahidləri xəritəsində nadir bitkilərin yayılma əraziləri də verilmişdir. Müəlliflər tərəfindən tədqiq olunan 132 rəsmi dərman bitkisinin 30-u sənaye əhəmiyyətli, bol təbii ehtiyata malik olan növ kimi qiymətləndirilməklə, 10 məntəqə üzrə təbii ehtiyatı hesablanmış və nəticələr cədvəllərdə öz əksini tapmışdır.

Müəlliflər Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun “Naxçıvan Muxtar Respublikasında rəsmi dərman bitkilərindən səmərəli istifadə olunması və mühafizəsinin elmi əsasları” adlı layihəsinin qalibi olmuş və yerinə yetirilmiş bu layihədən əldə olunmuş nəticələrə əsasən kitab yazılmışdır. Əhalinin kitabdan dolğun və səmərəli istifadə etməsi üçün istər yabanı, istərsə də mədəni halda becərilən dərman bitkilərinin tanıdılması məqsədilə bitkilərin ekoloji şəraitdə çəkilmiş rəngli fotoşəkilləri də kitabda öz əksini tapmışdır.

Kitabın “Ön söz”ündə akademik Tariyel Talıbovun qeyd etdiyi kimi, “bitkilər aləmi insan həyatı və fəaliyyətində önəmli yer tutur. Doğrudan da, Yer kürəsini yaşıl örtüksüz təsəvvür etmək mümkün deyildir və heç şübhəsiz ki, bitkilər olmasaydı, Yer kürəsi də təkamül edərək müasir formada ola bilməzdi. Təbii sərvətlər içərisində bərpa oluna bilərək tükənməz hesab edilən dərman bitkiləri xüsusilə seçilir. Lakin əsas məsələ heç də bu tükənməz təbii sərvətin bolluğu deyil, ondan necə və nə qədər səmərəli istifadə olunması məsələsidir”. Bu mənada “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri” kitabında ilk dəfə olaraq təbii sərvətlərin varlığı deyil, onların ehtiyatı, tətbiq sahələri incələnmiş, ondan səmərəli istifadə yolları da göstərilmişdir.

Təqdim edilən bu kitabda başlıca məqsəd Naxçıvan Muxtar Respublikası florasında yayılmış dərman bitkilərinin təbiətdəki müasir vəziyyətini öyrənməkdən, təbii ehtiyatının rayonlar və təbii zonalar üzrə öyrənilməsindən, yayıldığı zonaların xəritələşdirilməsindən, onlardan səmərəli istifadə ilə bərabər, eyni zamanda nadir növlərin mühafizəsi yollarının müəyyənləşdirilməsindən ibarət olmuşdur. Bu əsər Naxçıvan Muxtar Respublikasında mövcud olan 132 növ rəsmi dərman bitkisinin sistematik vəziyyəti, təbii və istismar ehtiyatı, kimyəvi tərkibi və yayılma zonaları haqqında geniş təsəvvür yaradan ilk kitabdır.

Müəlliflər tərəfindən dərman bitkilərinin ümumi sahələri, onların hər hektarının məhsuldarlığı, bioloji və istismar ehtiyatı hesablanmış və illik tədarük həcmi müəyyənləşdirilmişdir. Təbii ehtiyatı bol olan 30 növ rəsmi dərman bitkisinin biokimyəvi tərkibi qeyd edilmiş, bəzilərinin isə biokimyəvi analizi mövcud cihaz və avadanlıqlarla aparılmışdır. Təbii ehtiyatı bol olan rəsmi dərman bitkilərindən alına biləcək mümkün təsiredici bioloji fəal maddələr müəyyənləşdiriləcək, onlardan alına biləcək müxtəlif təyinatlı dərman preparatları, məlhəmlər, ekstraktlar, biokremlər, yağlar və digər məhsullar haqqında məlumat müvafiq qurumlara təqdim olunmuşdur.

*Beləliklə, “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri” kitabı sağlamlığın qorunub-saxlanmasında mühüm rol oynayacaq biologiya, tibb və aqrar elmləri sahələrinin botanika istiqaməti üzrə yazılmış fundamental, tətbiqi xarakterli mükəmməl əsərdir. Kitabdan tələbələr, magistrantlar, tibb işçiləri, eyni zamanda xalq təbabəti ilə məşğul olan insanlar da istifadə edə bilərlər.*

**Eldar NOVRUZOV**
***AMEA Botanika İnstitutunun elmi işlər üzrə direktor müavini, biologiya üzrə elmlər doktoru***

# Gəncliyin vətənpərvərlik tərbiyəsi diqqət mərkəzindədir

***Culfa Rayon Multikulturalizm və Dini Məsələlər üzrə Komissiya Bənəniyar kənd tam orta məktəbində “Müasir gəncliyin vətənpərvərlik ruhunda tərbiyəsi” mövzusunda tədbir keçirib.***

Tədbirdə Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini, Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyanın sədri Allahverdi Qasımov qeyd edib ki, sivilizasiyaların qovuşduğu məkanda yerləşən ölkəmizin zəngin mədəni, mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilir. Mövcud milli-mədəni müxtəliflilik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfensiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirib.

“Gənclik hər bir millətin inkişafının təməl daşıdır. Məhz bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir”, – deyən Allahverdi Qasımov vurğulayıb ki, yetkinlik yaşına çatmayan şəxslərə təsir imkanları olduqca asandır. Müasir gəncliyin milli-mənəvi dəyərlərə, adət-ənənələrə sadiq qalmaq şərtilə ümumbəşəri dəyərləri və tələbləri dərk edən şəxsiyyət kimi tərbiyə olunması multikulturalizmin formalaşması baxımından olduqca əhəmiyyətlidir. Məhz buna görə də müəllimlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün səy göstərməlidirlər.

Komissiyanın üzvü, Culfa Rayon Təhsil Şöbəsinin müdiri Adəm Qasımov çıxış edərək bildirib ki, rayonun ümumtəhsil məktəblərində şagirdlərin vətənpərvər, dostluğa sədaqətli tərbiyə olunmaları üçün çox işlər görülür. Xüsusilə məktəblilərin muzeylərə ekskursiyalarının təşkil olunması, yurdumuzu tanıtmaq məqsədilə tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır.

Komissiyanın digər üzvü, Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Füzuli Hüseynli isə çıxış edərək müasir gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mədəniyyət müəssisələrinin üzərinə düşən vəzifələrdən danışıb.

Məktəbin müəllimlərindən Ruqayə Nəcəfquliyeva və Zeynəb Abbasova çıxışlarında gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasının müəllimlərin başlıca vəzifəsi olduğunu diqqətə çatdırıblar.

**Xəbərlər şöbəsi**

# Karateçilərimiz dünya çempionatında iştirak edirlər

30 aprel-3 may tarixləri arasında Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində Dünya Karate Federasiyasının 6-cı dünya çempionatı keçiriləcək. Sevindirici haldır ki, bu çempionatda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının iki yetirməsi də iştirak edəcək. Belə ki, qonşu ölkədə bayrağımızı 9 yaşlı Rəşid Süleymanov və 8 yaşlı idmançımız Günay Süleymanova dalğalandırmağa çalışacaq. Bacı-qardaş olan karateçilərimiz artıq yarışın təşkil olunacağı ölkədədirlər.

# İdman cəmiyyətinin yetirməsi rinqdə rəqib tanımayıb

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin yetirmələrinin ölkə birinciliyində uğurlu çıxışları davam etməkdədir. Ötən günlərdə Bakı şəhərində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman cəmiyyətləri arasında keçirilən boks üzrə açıq birinciliyə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin bir idmançısı qalib olmaqla bütün diqqətləri üzərinə cəlb edib. 69 kiloqram çəki dərəcəsində mübarizə aparan Əjdər Məmmədov bütün rəqiblərinə qalib gəlib və fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonunun Çərçiboğan kənd sakini Əzizov Nizami Əziz oğlunun adına olan JN-732 nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı” itdiyindən etibarsız sayılır.

* * *

Cabbarov Məmməd Əli oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 347